# KİTABXANALARIN SOSİAL ŞƏBƏKƏLƏRDƏ FƏALİYYƏTİ VƏ İNNOVASİYALAR

**QULİYEV ORUC**
***Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru***

*İnformasiya məkanı sürətlə böyüməkdə, insanları və cəmiyyəti yeni çağırışlarla qarşı-qarşıya qoymaqdadır. Müasir kitabxana-informasiya fəaliyyəti özünün çoxfunksionallığı ilə fərqlənir. Eləcə də mobilliyi və yeni çağırışlara cavab verə bilməsi ilə fərqlənir. Ənənəvi kitabxana-informasiya xidmətinin təşkili ilə yanaşı kitabxanalar müasir innovasiyaların öyrənilməsi və tətbiqi ilə məşğul olur, ictimai mütaliənin hələ də mərkəzi olaraq qalır, distant təhsildə iştirak edir, qlobal informasiya məkanında inteqrasiya proseslərinin iştirakçısı olur, yeni məhsullar istehsal edir, sosial şəbəkələrdə yayın və təbliğat işləri həyata keçirir.*

***Açar sözlər***: *Sosial şəbəkələrdə kitabxanalar , e-kitabxanaçılıq, virtual informasiya məkanı, innovativ kitabxanaçılıq.*

Məlumdur ki, yeni texnologiyaların dövriyyəyə daxil olması ilk növbədə gəncləri özünə cəlb edir, gənclər yeni texnologiyaların öyrənilməsində fəal iştirak edir, tətbiqində aktiv iştirakçıya çevrilir. Bu baxımdan Respublikada fəaliyyət göstərən gənclər kitabxanalarının virtual məkanda, xüsusilə də sosial şəbəkələrdə aktiv iştirakı çox əhəmiyyətlidir.

Respublika Gənclər Kitabxanası olaraq 2016-cı ilin birinci yarısında virtual məkanda iştirakımızı artırmaq məqsədi ilə sosial şəbəkələrin öyrənilməsi və kitabxananın bu şəbəkələrdə fəaliyyətini artırmaq qərarına gəldik. Gənclərin sosial şəbəkələrdə çox zaman keçirdikləri reallığından çıxış edərək və virtual məkanda kitabxananın geniş imkanlarının mövcud olduğunu nəzərə alaraq bu istiqamətdə diqqətimizi informasiya təbliği problemlərinə yönəltdik. Müəyyən olundu ki, Azərbaycan gəncləri virtual məkanda mövcud olan sosial şəbəkələrdən- Linked, Adnaklasnik, Feyzbuk, İnsteqram, Moy mir, Tviter, Tanqo və VKontakte kimi müxtəlif sosial şəbəkələrdən, əsasən, Feyzbukda daha çox zaman keçirir və burada geniş sosial aktivlik müşahidə olunur. Müəyyən edilmişdir ki, sosial kommunikasiyalar baxımından, əməliyyat alətləri, informasiya kütləsinin çirklilik səviyyəsi, əməliyyatların sürəti, ünsiyyətin xarakteri baxımından Feyzbuk digər sosial şəbəkələrdən ciddi şəkildə fərqlənmir.

Türkiyədə və Rusiya Federasiyasında gənclərin virtual məkanda aktivliyi, informasiya tələbatı və bu tələbatın ödənilməsi texnologiyası türk və rus həmkarlarımız tərəfindən öyrənilməkdədir. Türkiyə Cumhuriyyəti gəncələrinin Feyzbukla yanaşı Tviterdə, Rusiya Federasiyasında isə Feyzbukla yanaşı Vkontakte sosial şəbəkələrində gənclərin daha çox zaman keçirməsi və aktiv



5

informasiya mübadiləsi etməsi faktları müəyyənləşdirilmişdir. Həmkarlarımızın bu sahədə əldə etdikləri təcrübə diqqəti cəlb edir. Azərbaycan gənclərinin üstünlük verdiyi sosial şəbəkə olaraq əsasən Feyzbuk hesab edilir. Mövcud təcrübəni öyrənərək bu sosial şəbəkədə diqqətimizi təmərküzləşdirdik. Gənclər kitabxanası olaraq hər şeydən əvvəl sosial şəbəkələrdə iştirakımızın tezislərini aşağıdakı kimi müəyyənləşdirdik:

-Gənclərin mütaliəsinə dəstək olacaq ədəbiyyatın təqdimi və təbliği

-Azərbaycanın və dünyanın görkəmli elm və ədəbiyyat xadimlərinin təqdimi və yayımı

-Şəxsi təhsil ilə əlaqədar materialların və üsulların(alətlərin) təqdimi və təbliği

-Təhsil və ixtisas seçimi ilə əlaqədar materialların seçimi və yayımı

-Mədəniyyət və incəsənətə dair materialların təqdimi və təbliği

-Milli vətənpərvərlik mövzularında materialların təqdimi və təbliği

-Kitabxananın mövcud fəaliyyətinin mütəmadi sosial şəbəkədə işıqlandırılması.

**2020-ci ilin ilk aylarının** nəticələri göstərdi ki, gənclər böyük həvəslə kitabxananın dostluğunu qəbul edir, gündəm yaradan materiallarla tanış olur, bəyənir, paylaşır və şəxsi fikirlərini ifadə edirlər. Bu yolla kitabxana öz informasiya siyasətini – yeni nəşrləri, təqdimatları, görüşləri, sərgiləri daha geniş oxucu auditoriyasına çatdırmaq imkanı əldə edir və əsas məqsədinə daha artıq uğurla çatmış olur. Sosial şəbəkələrdə fəaliyyətin statistik təhlili üçün aşağıdakı cədvəl təklif olunur.

Sosial şəbəkədə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının səhifəsində ilin birinci altı ayı dostların sayı 2000 - 1900 nəfər arasında dəyişib. Onların 1150 nəfəri fiziki, 670 nəfəri hüquqi şəxslər təşkil edib. Fiziki şəxslərdən aktiv olanı—580, passiv-560 nəfəri təşkil etmişdir ki, bu əhəmiyyətli göstərici hesab edilir.

Hüquqi şəxslərdən aktiv olani-650, passiv olani- 18 vahiddir. Bunlardan – 662 informasiya müəssisəsidir ki, buraya partner kitabxanalar, mətbuat müəssisələri, ictimai birlik və təşkilatlar daxildirlər. Qeyd etmək lazımdır ki, kitabxananın sosial şəbəkədə dostları sırasında Azərbaycanın müxtəlif kitabxanaları ilə yanaşı Rusiyanın, Türkiyənin və Ukraynanın kitabxanaları da mövcuddur ki, onların vasitəsi ilə vaxtaşırı kitab, kitabxana, mütaliə və müasir informasiya texnologiyalarına həsr edilmiş diqqətəlayiq materiallar dövriyyəyə daxil olur və istehlakçıların marağına səbəb olur. Əlbəttə fəaliyyətimizin əsas istiqaməti Azərbaycan dilli auditoriya olduğundan sosial şəbəkələrdə regional və beynəlxalq təsirliliyi öyrənməyi qarşıya məqsəd qoymamışıq. Lakin qeyd olunmalıdır ki, Azərbaycan dilli auditoriyadan kənarda rus dilli auditoriyaya, türk dilli auditoriyaya və ingilis dilli auditoriyaya informasiya yayımı etmək iqtidarındayıq və bu istiqamətdə də layihələr nəzərdə tutulur.





Altı ay ərzində vizual materiallardan 10300 vahid, 100 adda sənəd və informativ mətnlər, 55 adda multimedia materialı yayım olunmuşdur. Bu materiallara 7 min bəyənmə və 250 paylaşma olmuşdur ki, bunlardan 150 daxili paylaşma, 100 vahid kənar paylaşmalar təşkil edir. Bu müddətdə 2 forum keçirilmiş və bu forumlarda iştirakçıların 990 şərhi (kommentariyası) daxil olmuşdur. Eləcə də müxtəlif məqsədli və məzmunlu 300 təqdimat keçirilmişdir ki, bu təqdimatlarda iştirakçılar 950 şərhlər (kommentariyalar) etmişdilər. Bu müddətdə sosial şəbəkə vasitəsilə kitabxanaya 150 sorğu və 10 oxucu təklifi verilmişdi ki, kitabxana personalı bu sorğulara operativ reaksiyalar vermişdi. Virtual məkanda kitabxana-informasiya xidmətinin yeni forma və üsulları yeni texnologiyaların tətbiqi ilə təkmilləşir. Hal-hazırda sosial şəbəkələrdə kitabxanaların həm mədəni, həm də pedoqoji funksiyalarını uğurla yerinə yetirmək imkanları yaranmışdı. Beləki, informasiya kütlələrini yaymaq və təbliğ etmək, oxucu marağını öyrənmək və sorğuları qəbul etmək, eyni zamanda sorğuları ödəmək və tövsiyələr etmək üçün vahid platforma formalaşır. Bu platforma istehlakçı zamanına maksimum qənaət şəraitində xidmət işini təşkil etmək, eləcə də istehlakçı oxucuların daima yanında olmaq imkanı yaradır. Onlayn informasiya xidməti yaxın gələcəyin ən böyük nailiyyətlərindən hesab edilir. Bu baxımdan yaxın zamanlarda kitabxana-informasiya xidmətinin təşkilini həyata keçirəcək mütəxəssislərin informasiya resursları və mötəbər informasiya mənbələri barədə yüksək peşəkarlığı tələb olunur.

Sosial şəbəkələrdə informasiya kirliliyini nəzərə alaraq gənclər kitabxananı mötəbər informasiya mənbəyi olaraq qəbul edir və materialları məmnuniyyətlə paylaşırlar. Məsələ burasındadır ki, virtual məkanda yüzlərlə media qrumları fəaliyyət göstərməkdədir. Bu media qruplarının sosial, siyasi, mədəni orientasiyasını müəyyənləşdirmək bəzən peşəkarlar üçün belə çətin olur. Hər gün informasiya küyü yaratmaqla məşğul olan bir çox media qurumları xüsusilə də gənclərin informasiyalaşmasında ziyanlı rol oynayır. Etiraf edək ki, virtual məkanda ziyanlı informasiya kütləsi ilə yanaşı çox böyük təxribat xarakterli informasiya kütlələri də mövcuddur. Hal-hazırda belə təxribat xarakterli informasiyalardan qorunmağın yeganə yolu mötəbər informasiya müəssisələrinin sosial şəbəkələrdə iştirakını artırmaq və mötəbər informasiyanın mövcudluğunu təmin etməkdir.

Sosial şəbəkələrdə informasiya küyü müasir virtual məkanın mühüm xüsusiyyətidir və bu da ən çox gənclərə təsir edir. Həm sosioloqların, həm də psixoloqların gəldiyi qənaətə görə gənclər müxtəlif növ informasiya təsirlərinə asanlıqla məruz qalır və bu zaman informasiyanın mötəbərliyi arxa plana keçir. İnformasiya hücumu və informasiya müharibələri də məhz informasiyanın bu kimi xassələrinə əsaslanır. Son onilliklərin təcrübəsi göstərir ki, məqsədəuyğun informasiya siyasəti yanlışları həqiqətə, həqiqəti isə yanlışa çevirə bilir. Qlobal informasiyalaşma şəraitində informasiya küyünün aradan qaldırıl-

ması mümkün olmasa da onun kütləsinin əsaslı şəkildə azalması mümkündir. Bu baxımdan kitabxana-informasiya fəaliyyəti ilə məşğul olan müəssisələrimiz virtual məkanda, xüsusilə də sosial şəbəkələrdə fəaliyyətlərini artırmalıdırlar ki, bu da informasiya küyünün kütləsinin azalmasına gətirib çıxarar. Məlumdur ki, gənclər çox böyük həcmdə informasiya istehlakçılarıdırlar. Qlobal informasiya şəbəkəsində sirkulyasiya edən informasiya proseslərinin əsas iştirakçıları gənclərdir. Dünyagörüşü, şəxsi və təhsil ehtiyacları, tədqiqat məqsədli, eləcə də ədəbi mütaliəsi məqsədi ilə gənclərin çox böyük əksəriyyəti hər gün bu informasiya kanallarına müraciət edirlər. Müasir kommunikasiya vasitələrindən uğurla istifadə edə bilmək bacarığı hələ düzgün informasiya kanallarını müəyyənləşdirə bilmək demək deyildir. Təcrübə göstərir ki, düzgün informasiya kanallarından istifadə edə bilmək, konkret sorğuların təmin olunması üçün lazım olan alətlərdən istifadə edə bilmək vərdişləri, informasiyanın həm elmi, həm də sosial dəyərinin qiymətləndirilməsi vərdişləri gənc istehlakçılarda tədricən formalaşır və bu işdə gənclər kitabxanasının, eləcə də gənclərə kitabxana-informasiya xidməti göstərən digər kitabxanaların da üzərinə əhəmiyyətli missiya düşür. Bu istiqamətdə fəaliyyət göstərən kitabxanaların əməyi bir çox hallarda gözə görsənməsədə mütəxəssislər bunu xüsusi qiymətləndirirlər. Hesab edirik ki, bu istiqamətdə kitabxanaların fəaliyyətinin reytinqləri öyrənilməli, qiymətləndirilməli və təşviq olunmalıdır. Belə bir fəaliyyətin qiymətləndirilməsi üçün xüsusi reytinq cədvəli tərtib olunub və mütəxəssislərin istifadəsinə təklif edilmişdir.

Göründüyü kimi fəaliyyətin kiçik bir parçasının təhlili bir kitabxana vahidinin ciddi həcmdə informasiya yükünü öz üzərinə götürdüyünü ifadə edir. Bu metodla kitabxanaların fəaliyyətini yönəltmək hesabına virtual məkanda informasiya mühitinə təsir edə biləcək bir hərəkətlənməyə nail olmaq olar. Başqa sözlə desək, qadağalar deyil, məhdudiyyətlər deyil, əksinə aktiv informasiya fəaliyyəti istehlakçılara informasiya təminatını həyata keçirir və eləcə də sağlam informasiya mühitinin formalaşmasında iştirak edir.

C.Cabbarlı adına Respublika Gənclər kitabxanası **"Kıtabxanalar virtual məkanda"**mövzusunda həm nəzəri həm də təcrübi fəaliyyətini davam etdirir. C.Cabbarlı adına Respublika Gənclər kitabxanasının hazırlayıb çap etdirmiş olduğu dörd elmi-praktik əhəmiyyəti olan kitabların təqdimatı 2020-ci ilin əvvəllərində həyata keçirildi. "Kitabxanalar virtual məkanda" layihəsi əsasında yaradılmış mütəxəssislər qrupu 4 elmi-təcrübi vəsait hazırlayaraq çap etdirmiş və bu ilin əvvəlində son kitab işıq üzü görmüşdür. Haqqında bəhs edilən **"Kitabxana-informasiya sistemləri"**, **"Kitabxanalarda internet forumlarırn keçirilməsinin metodikası"**, **"Elektron kitabxanalar"** və **"Şəhər əhalisinə kitabxana-informasiya xidmətinin təşkili"** adlanan bu kitablar mütəxəssislərin istifadəsi üçün nəzərdə tutulmuş və kitabxana-informasiya fəaliyyətinin müasir tələblərə cavab verən səviyyəyə çatdırılması məqsədi ilə qabaqcıl dünya təcrübəsini öyrənmək və tətbiq etmək istiqamətində bir sıra tövsiyələr irəli sürmüşdür. Əsas məqsəd kitabxanaların virtual məkanda rəngarəng fəaliyyətinin təşviq olunması və istiqamətləndirilməsidir. Video konfrans çapdan çıxmış vəsaitlərin kitabxana ictimaiyyətinə təqdim etmək, yeni metod və üsulların kitabxana təcrübəsinə tətbiq etmək və kitabxana-informasiya fəaliyyətinin virtual məkanda keyfiyyətini yüksəltmək məqsədi daşıyır.





## ƏDƏBİYYAT


1. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2012, 305 s.*
2. *Xələfov A.A. Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsi. B., BDU nəşri, 2016, 320 s.*
3. *Əhmədov E.Y. Uşaq və gənclərin kitabxana-informasiya təminatı. –Monoqrafiya,-Mütərcim,2016, 245 s.*
4. *Казими П.Ф. Информационная инженерия в библиотечной деятельности. научно-теоретический и практический журнал. № 8 (87) 2014. серия: экология. физика. география и геология. современные информационные технологии .технические науки. уралнаучкнига. город уральск. стр.100-106.*
5. *Оценка информации в библиотечно-информационной деле. Тольяттинский Государствунный Университет,Вектор науки,2013, №1(12),с.58-60. (Казими П.Ф. Исмаилова Н.Н. Курбанов А.И.)*
6. *Kazimi P.F..Gurbanov A . Evaluation of İnformation in Library and Information Activities 47-49. Iceecat'14. International conference on electronic, computer and automation technologies (may 9-11, 2014 selcuk university İltek - Konya, Turkey) proceedings book. 9 - 11 May, 2014. Konya, Turkiye. ekotek.selcuk.edu.tr.*
7. *Sadıqov T. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu.Bakı,Şərq,2016. 168 s.*
8. *Sadıqov T. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası .Elmi, metodiki və təcrübi fəaliyyətin təhlili. Bakı, Apastrof,2015, 272 s.*


# БИБЛИОТЕЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ И ИННОВАЦИИ В СОЦИАЛЬНЫХ СЕТЯХ

**КУЛИЕВ О.И.**


### *РЕЗЮМЕ*

Статья посвящено новым, инноватнвным направлениям библиотечной деятельности каким является деятельность в соцсетях. В этом контексте изучается практика библиотечно-информационной деятельности в виртуальном пространстве и в основном в соцсетях.


**Ключевые слова:** *Библиотеки в соцсетьях, е-библиотековедение, виртуальная информационная пространства, инновационная библиотечная работа.*

## LIBRARY ACTIVITIES AND INNOVATIONS IN SOCIAL NETWORKS

**QULIEV O. I.**

***SUMMARY***

*The article is devoted to new, innovative areas of library activity, which is the activity in social networks. In this context, the study of the practice of library and information activities in the field of education and in social networks is being studied.*
***Keywords:*** *Library activities in social networks, e-library science, vertical information space, innovative library equity.*